# İtaliyadakı Azərbaycan Mədəniyyət Mərkəzində "Şuşa. Naxışların rəqsi" rəqəmsal sərgisi açılıb

Azərbaycanın İtaliyadakı səfirliyinin tabeliyindəki Mədəniyyət Mərkəzində "Şuşa. Naxışların rəqsi" rəqəmsal sərgi açılıb və master-klas keçirilib. Səfirliyin Mədəniyyət Mərkəzi, Yunus Əmrə İnstitutu, Türkiyə Radio və Televiziya Ali Şurası (RTÜK) və "Mezo" Rəqəmsal İncəsənət Qrupunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə diplomatik korpusun, mədəniyyət, incəsənət və akademik dairələrin nümayəndələri iştirak ediblər.




Ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanov çıxış edərək "Şuşa" süni zəka layihəsinin və sərginin Azərbaycanın mədəni irsinin rəqəmsal formata çevrilməsində və mədəniyyətimizin Avropada təbliği istiqamətində mühüm rol oynadığını bildirib. Səfir ənənəvi simvol və texnikaları innovativ texnologiya ilə birləşdirən ilk Azərbaycan rəqəmsal kompozisiyasının təqdimatının böyük maraq doğurduğunu vurğulayıb, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunduğunu diqqətə çatdırıb.

Sərgidə "Şuşa" adlı süni zəka tərəfindən Azərbaycanın zəngin və müxtəlif mədəni irsinin əsasında yaradılmış rəqəmsal incəsənət əsərləri, xüsusən milli motivləri əks etdirən kəlağayılar nümayiş etdirilir.

Azərbaycan.- 2024.- 3 oktyabr (№ 216).- S.15.